### MÜVAFİQ DÖVLƏT PROQRAMLARI ÇƏRÇİVƏSİNDƏ HƏYATA KEÇİRİLƏN İŞLƏR YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN DİNAMİK İNKİŞAFINA YOL AÇIB

...Belə ki, sözügedən Sərəncama əsasən, Biləsuvar rayonu ərazisində Cəbrayıl rayonundan olan on səkkiz min nəfər məcburi köçkünün məskunlaşdığı 11 yaşayış məntəqəsini birləşdirən Birinci-On birinci qəsəbələrarası avtomobil yolunun əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə...



Bax səh. 6

### KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə növbəti açıq məhkəmə iclası keçirilib. Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Cinayət Məcəlləsinin 333.1-ci və 333.3-cü maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxılıb. Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 05 iyul 2017-ci il, çərşənbə / № 116 (5002). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır



*Prezident İlham Əliyev: Azərbaycanda 30-a yaxın hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı böyük dərəcədə ölkəmizdə istehsal edilən hərbi məhsullarla təmin olunur*



## Prezidentin iş günü

Mali Respublikasının Prezidenti İbrahim Bubakar Keyta Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

### Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

İyulun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda Kollegiya üzvləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər. İclasda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Komitə cari ilin birinci yarısında vəzifəsindən...

Bax səh. 4

### Mühəndislik fəlsəfəsi. Məkan, Zaman və Yaranış haqqında elmi-fəlsəfi traktat

Texnika elmləri doktoru, professor, bir sıra xarici ölkələrin akademiyalarının akademiki, Azərbaycan Milli Aviasiya Akademiyasının nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti...



Bax səh. 6

### Azərbaycan Dillər Universitetində "Məzun günü" keçirilib

İyulun 4-də Azərbaycan Dillər Universitetində (ADU) 2016-2017-ci tədris ilində universitetin bakalavriat və magistratura pillələrində təhsillərini başa vuran tələbələrin "Məzun günü" keçirilib. Tədbirdə ADU-nun rektoru, akademik Kamal Abdulla, universitetin müəllim və tələbələri, valideynlər iştirak ediblər. Məzunları təbrik edən K.Abdulla deyib: "Bu gün, həqiqətən də, əziz gündür. Mən inanıram ki, bu günün ab-havasını, səmimiliyini, doğmalığını siz həyatınız boyu qəlbinizdə qoruyub...

Bax səh. 5



### ƏLİ ƏHMƏDOV: BİZ QÜRUR DUYURUQ Kİ, BU QISA MÜDDƏT ƏRZİNDƏ YENİ İQTİSADİ VƏ SOSİAL İNKİŞAF MODELİNİ YARATMIŞIQ

İyulun 4-də Baş nazirin müavini Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru xanım Arança Qonzaleslə görüşüb. AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin...

Bax səh. 3

### ÖZÜNÜMƏŞĞULLUQ - ÖZ MƏŞĞULLUĞUNU QUR VƏ AİLƏ BİZNESİNƏ YİYƏLƏN

İnsan əmək vasitəsilə özü ilə təbiət arasında münasibətləri tənzimləyir. Əmək prosesində təbiəti dəyişməklə insan özünü də dəyişir, yeni imkanlarını üzə çıxarır. Zəhmət bütövlükdə insan cəmiyyətini dəyişdiyi kimi, hər bir fərdin həyatında da mühüm rol oynayır. Əmək insanı təkmilləşdirmiş, onu ali varlığa çevirmişdir. Sevmədiyin, bəyənmədiyin, bacarmadığın işi yerinə yetirmək çox ağırdır. Bu zaman insan öz əməyindən zövq almır, inkişaf etmir, gərginlik, mənəvi sıxıntı keçirir. Təbii ki, belə vəziyyətdə işçi peşəkar ola, uğurlu karyera qura bilmir. Həyatda öz yerini necə tapmalı, hansı peşəni seçməli sualı bu gün hər bir insanı düşündürür. Peşə, sənət, ixtisas seçmək hər bir gəncin həyata vəsiqəsinin başlanğıcıdır. Peşə seçiminə ciddi yanaşılmalı, o elmi əsaslara söykənməlidir. Azərbaycan xalqının daim mənəvi-əxlaqi dəyərlər sistemində əməyə və əmək adamına böyük hörməti, xoş münasibəti mövcud olub. Bir insanın əmək fəaliyyəti, onun məşğulluğu təkcə onun və...

Bax səh. 5



### MİDA İLK DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞI LAYİHƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ 11 MİLYON MANATDAN ARTIQ ÖZƏL İNVESTİSİYA CƏLB EDİR

Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi ölkə başçısının 2016-cı il 12 iyun tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş...

Bax səh. 6

### DİA və "ASAN xidmət"in dövlət idarəçiliyinə dair birgə seminarı keçirilib

Qəbələdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN) və...



Bax səh. 5

### YAP Səbail rayon təşkilatının İdarə Heyətinin növbəti iclası keçirilib

İyulun 4-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı...



Bax səh. 3

### Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyəti davamlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir

...Bildiyiniz kimi, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında 25-27 sentyabr 2015-ci il tarixində Minilliyin İnkişaf...



Bax səh. 3

### AzMİU-da "Məzun günü" keçirilib

Dünən Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Məzun günü" keçirilib. Tədbirdə millət vəkilləri, özəl qurumların təmsilçiləri, AzMİU-nun fəxri məzunları, valideynlər və...



Bax səh. 4

### Cocuq Mərcanlıda əlavə 100 evin tikintisinə başlanılır

Prezident İlham Əliyevin 2017-ci il 15 iyun tarixli Sərəncamına əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin növbəti mərhələsinə başlanılıb...



Bax səh. 6

# Əli Əhmədov: Biz qürur duyuruq ki, bu qısa müddət ərzində yeni iqtisadi və sosial inkişaf modelini yaratmışıq



İyulun 4-də Baş nazirin müavini Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru xanım Arança Qonzaleslə görüşüb.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin nümayəndə heyətinin Bakıya səfərinə böyük önəm verdiyini, səfər çərçivəsində aparılan danışıqların Azərbaycanın BMT ilə əlaqələrinin daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb. Azərbaycanın dövlət müstəqilliyini 25 il əvvəl bərpa etdiyini xatırladan Baş nazirin müavini vurğulayıb ki, ötən illər ərzində ölkəmiz həm iqtisadi, həm də sosial cəhətdən böyük inkişaf yolu keçib. **"Biz qürur duyuruq ki, bu qısa müddət ərzində yeni iqtisadi və sosial inkişaf modelini yaratmışıq. Biz Azərbaycana gələn qonaqlara ölkəmizin iqtisadi-sosial nailiyyətlərini təqdim edirik. Böyük gələcəklə bağlı planlarımızı onlarla müzakirə edirik ki, daha düzgün və uğurlu yol seçə bilək. Azərbaycan özünün iqtisadi inkişaf modelini əhəmiyyətli dərəcədə təkmilləşdirmək üzərində düşünür"**, - deyə Əli Əhmədov bildirib.

Baş nazirin müavini qonağa məlumat verib ki, Azərbaycan son 12-13 il ərzində bu böyük inkişafa daha çox neft gəlirləri hesabına nail olub. İndi isə tükənməyən resurslar əsasında uzunmüddətli iqtisadi inkişaf strategiyası yaradılır və onun əsas istiqamətləri müəyyənləşdirilir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü və dünyada baş verən inkişaf proseslərinin iştirakçısı olaraq öz inkişaf məqsədlərini BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırır.

Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru xanım Arança Qonzales Azərbaycana ilk dəfə səfər etdiyini deyib. **"Biz bilirik ki, Azərbaycan öz sərvətlərinin idarə edilməsinə xüsusi diqqət yetirir, öz coğrafi mövqeyindən istifadə edir. Ölkə əhalisinin əksəriyyəti gənclərdən ibarətdir. Bu baxımdan biz hesab edirik ki, həm iqtisadi, həm də sosial baxımdan Azərbaycan tərəqqiyə, irəliləyişə can atan bir ölkədir. Biz də bu ölkəyə dəstək göstərməyə hazırıq"**, - deyə xanım A.Qonzales səfərinin məqsədinin məhz bu dəstəyi bəyan etməkdən ibarət olduğunu bildirib.

O qeyd edib ki, təmsil etdiyi Beynəlxalq Ticarət Mərkəzi BMT-nin bir hissəsidir. 1964-cü ildə yaradılan təşkilatın qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir. Beynəlxalq Ticarət Mərkəzi BMT və Ümumdünya Ticarət Təşkilatının birgə agentliyidir. Onun missiyası ticarət və beynəlxalq biznesin inkişafı vasitəsilə inklüziv və dayanıqlı inkişafa, habelə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşmasına töhfə verməkdir.

# Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyəti davamlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir



***Müsahibimiz Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynovdur:***

**- Hüseyn müəllim, məlum olduğu kimi, hazırda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması dünya ölkələri üçün aktuallıq kəsb edir. BMT tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı sənəd bu sahədə konseptual baza kimi mühüm əhəmiyyət kəsb edir. Bu barədə nə deyə bilərsiniz?**

- Bildiyiniz kimi, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında 25-27 sentyabr 2015-ci il tarixində Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq 17 dayanıqlı inkişaf məqsədi, 169 hədəf və 231 göstəricini özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə dair qərar qəbul olunmuşdur. Yeni qəbul olunmuş sənəd "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlanır və Azərbaycan da daxil olmaqla 193 ölkə tərəfindən qəbul olunmuş qlobal sənəddir. Sənəd davamlı inkişafın 3 müxtəlif aspektini əhatə edir: iqtisadi, sosial və ətraf mühit məsələləri. Hər bir sahə üzrə bütün dünyada qlobal səviyyədə qəbul olunmuş hədəf və göstəricilər müəyyənləşdirilmişdir. Dayanıqlı İnkişaf Məqsədləri Minilliyin İnkişaf Məqsədləri ilə müqayisədə daha geniş və qlobal sənəddir. Eyni zamanda, Minilliyin İnkişaf Məqsədləri aşağı inkişaf kateqoriyasına aid olan ölkələri əhatə etməklə, daha çox sosial məsələləri özündə ehtiva edirdi.

2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik 3 əsas prinsip üzərində qurulmuşdur.

Bunlardan birincisi universallıq prinsipi adlanır. Bu prinsipin təkcə inkişaf etməkdə olan ölkələr üçün deyil, bütün dünya ölkələrinə tətbiq edilməsi nəzərdə tutulur. Bu çərçivədə bütün inkişaf kateqoriyasına aid olan ölkələr - istər inkişaf etmiş, istər inkişaf etməkdə olan, istərsə də aşağı inkişaf kateqoriyasına aid olan ölkələr üçün spesifik hədəflər müəyyənləşdirilmişdir. Eyni zamanda, sənəddə qəbul edilmiş məqsədlərin bir-biri ilə sıx bağlılığı diqqət çəkən əsas məqamdır. Belə ki, bir məqsədə nail olmaq üçün yalnız eyni məqsəd üzrə fəaliyyət göstərmək kifayət etmir. Sənəddə bir məqsədə çatmaq üçün digər məqsədlərə nail olunması başlıca məsələlərdən biri kimi öz əksini tapmışdır. Məsələn, dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında yoxsulluğun azaldılması birinci məqsəd kimi müəyyən olunsa da, yoxsulluq məsələləri digər məqsədlər sırasında müxtəlif hədəflərdə öz əksini tapmışdır.

Digər prinsip inteqrasiyalı yanaşma prinsipidir. Bu, bəhs olunan və digər strateji sənədlər çərçivəsində qəbul edilmiş məqsəd və hədəflərin bir-biri ilə uzlaşması məsələsini əks etdirir. BMT tərəfindən qəbul olunmuş bir sıra sənədlər dayanıqlı inkişaf məqsədlərinin hədəfləri ilə uyğunluq təşkil edir. Bu sənədlərin icrası, eyni zamanda, BMT tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də öz əksini tapmış hədəf və məqsədlərə nail olunması ilə nəticələnəcəkdir.

Digər bir yanaşma isə - "heç kimin geridə qalmaması" prinsipi ilə ifadə olunur. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı sənəd yoxsulluğun azaldılması, insanların rifah halının yaxşılaşdırılması, daha dayanıqlı iqtisadiyyatın qurulması, iqtisadiyyatın şaxələndirilməsi, həssas təbəqələrdən olan insanların əmək bazarına inteqrasiyasının təmin olunması kimi məsələlər əhatə olunduğu üçün heç kimin geridə qalmaması prinsipinə əsaslanmışdır.

**- Dayanıqlı inkişaf məsələləri həm də Azərbaycanın inkişaf gündəliyində yer alan başlıca məsələlərdən biridir...**

- Dayanıqlı inkişaf məsələləri Azərbaycanın inkişaf gündəliyində yeni məsələ deyil. Azərbaycan inkişafın dayanıqlılığının təmin olunması istiqamətində işlərə 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərinə qoşulmaqla başlamışdır. Ölkəmizdə ötən müddət ərzində Minilliyin İnkişaf Məqsədlərinə nail olunması üçün kompleks tədbirlər həyata keçirilmişdir. Belə ki, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın uğurlu icrasının nəticəsi kimi, yoxsulluğun və işsizliyin azaldılması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Bundan başqa, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişafın əsas strateji hədəflərini özündə ehtiva edir. Eyni zamanda, qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə iqtisadiyyatın müxtəlif sektorları üzrə 12 Strateji Yol Xəritəsi qəbul olunmuş və bu sənədlərdə müəyyənləşdirilmiş hədəflər də dayanıqlı inkişafa nail olunması baxımından mühüm əhəmiyyət kəsb edir...

**- Siz Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının təmsilçisisiniz. Dayanıqlı inkişafın təmin olunması kontekstində Şuranın yaradılması və fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?**

- Məlum olduğu kimi, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Azərbaycan azsaylı ölkələr sırasındadır ki, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasına Baş nazirin müavini səviyyəsində rəhbər təyin olunmuşdur. Bilirsiniz ki, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasına Baş nazirin müavini cənab Əli Əhmədov rəhbərlik edir. Bu, Azərbaycanın dayanıqlı inkişaf məsələlərinə nə dərəcədə ciddi və həssas yanaşmasının göstəricisidir.

Qeyd edim ki, Fərmanda Şuranın Katibliyinin formalaşdırılması ilə bağlı da tapşırıq verilmişdir. Belə ki, Fərmana əsasən, Şuranın Katibliyinin əlaqələndirilməsi İqtisadiyyat Nazirliyinə həvalə olunmuş və bu ilin yanvar ayında iqtisadiyyat naziri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini cənab Şahin Mustafayevin əmri ilə Şuranın Katibliyi formalaşdırılmışdır. Katibliyin işinin daha da təkmilləşdirilməsi, fəaliyyətinin təşkilinin səmərəliliyinin artırılması məqsədilə İqtisadiyyat Nazirliyində Dayanıqlı inkişaf şöbəsi yaradılmışdır. Katibliyin əsas funksiyası dövlət qurumları və digər maraqlı tərəflərlə Şuranın fəaliyyətinin əlaqələndirilməsinin təmin olunmasıdır.

Bir məqamı da vurğulamaq istərdim. Demək olar ki, bütün dövlət orqanlarında dayanıqlı inkişaf məsələlərinin həyata keçirilməsi üçün icraçılar müəyyənləşdirilmişdir. Müvafiq fəaliyyətin əlaqələndirilməsi məqsədi ilə Şura tərəfindən 3 istiqamətdə işçi qrupu, eləcə də monitorinq və qiymətləndirmə qrupu yaradılmışdır. Birinci qrup iqtisadi inkişaf və layiqli məşğulluq məsələlərini, ikinci qrup sosial məsələləri, üçüncü qrup isə ətraf mühit məsələlərini əhatə edir. Bu qrupların əsas funksiyası "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı sənəddən irəli gələn öhdəliklərin təmin olunması, eləcə də 2030-cu ilədək müxtəlif sahələri əhatə edən Dövlət proqramları, strateji sənədlər, layihələrin Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərinə uyğunlaşdırılmasıdır. Monitorinq və qiymətləndirmə qrupu isə bu hədəflərlə müəyyən olunmuş göstəricilər üzrə görülən işləri qiymətləndirir və monitorinqini həyata keçirir. Eyni zamanda, Fərmanla Dövlət Statistika Komitəsi də əsas tərəfdaş kimi müəyyən olunmuşdur.

**- Bildiyimiz kimi, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə bütün maraqlı tərəflərin cəlb edilməsi Qlobal gündəliyin əsas məqsədlərindən hesab edilir. Bununla bağlı Şura tərəfindən hansı işlər həyata keçirilib?**

- Ötən dövr ərzində DİM-lərin həyata keçirilməsində bütün maraqlı tərəflərin iştirakının təmin edilməsi, cəmiyyətin müxtəlif qruplarının Dayanıqlı İnkişaf Məqsədlərinin icrası prosesinə cəlb edilməsi və "heç kimin geridə qalmaması" prinsipinə əsaslanaraq, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və BMT-nin Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə bir sıra görüşlər təşkil olunmuşdur. Buna misal olaraq, 16 mart 2017-ci il tarixində "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında elm və tədqiqatların rolu" mövzusunda elm ictimaiyyətinin iştirakı ilə keçirilən panel müzakirə, 1 may 2017-ci il tarixində "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında vətəndaş cəmiyyətinin rolu" mövzusunda vətəndaş cəmiyyəti və QHT-lərin nümayəndələri ilə birgə keçirilən konfrans, 9 iyun 2017-ci il tarixində keçirilən "Dayanıqlı İnkişaf Məqsədləri: Qadın və İnkişaf" mövzusunda panel müzakirə, eyni zamanda, 10 aprel 2017-ci il tarixində 132-134 Təhsil Kompleksində "Dayanıqlı İnkişaf Məqsədləri: Təhsil dünyanı dəyişə bilər" mövzusunda yuxarı sinif şagirdləri üçün açıq dərsi göstərmək olar. Bu formatda keçiriləcək görüşlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur və növbəti müzakirələrin parlament, gənclər, özəl sektor və s. təmsil edən qruplarla keçirilməsi nəzərdə tutulur. Bütün bu tədbirlər, əlbəttə ki, Azərbaycan cəmiyyətinin hər bir üzvünün Dayanıqlı İnkişaf Gündəliyinin tələblərindən irəli gələn inkişafdan bəhrələnməsi və onların dayanıqlı inkişafına nail olunması üçün səylərinin artırılmasına geniş imkanlar yaradacaqdır. Eyni zamanda, istər elmi ictimaiyyətin, istər vətəndaş cəmiyyətinin, istərsə də ayrı-ayrı sosial qrupların nümayəndələrinin dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində iştirakı 2030 Gündəliyinin icrasına öz töhfəsini verəcəkdir.

**- Hüseyn müəllim, 2017-ci ilin iyul ayında Nyu-Yorkda keçiriləcək Yüksək Səviyyəli Siyasi Forumda təqdim ediləcək Azərbaycanın ilk Könüllü Milli Hesabatında hansı əsas məqamlar beynəlxalq ictimaiyyətə çatdırılacaq?**

- Məlumat üçün qeyd edim ki, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının ikinci iclasında, 2017-ci ilin iyul ayında Nyu-Yorkda keçiriləcək Yüksək Səviyyəli Siyasi Forum üçün BMT-nin müəyyən etdiyi "Dəyişilən dünyada yoxsulluğun aradan qaldırılması və firavanlığın təşviqi" tematik planına uyğun olaraq 6 DİM və hər il nəzərdən keçiriləcək 17-ci Məqsəd üzrə Azərbaycanın ilkin hesabatının hazırlanması qərara alınmışdır. Bununla əlaqədar olaraq, 2016-cı ilin dekabr ayında Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri cənab Əli Əhmədovun BMT-nin Baş katibi Antonio Qutterreşə ünvanladığı müraciət əsasında Azərbaycan da ilkin hesabat verəcək ölkələrin siyahısına əlavə olunmuşdur.

Müəyyən edilmiş vaxtın qısa olmasına baxmayaraq, Yüksək Səviyyəli Siyasi Forum üçün Azərbaycanın Könüllü Milli Hesabatının yekun variantı aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla hazırlanıb və BMT tərəfindən müəyyən olunmuş prosedurlara uyğun olaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası tərəfindən BMT-nin İqtisadi və Sosial Şurasına (ECOSOC) təqdim edilib.

Hesabat ön söz, xülasə olmaqla 10 bölmədən ibarətdir. Hesabatda Minilliyin inkişaf məqsədləri üzrə əldə olunmuş nailiyyətlər, Azərbaycan Respublikasının inkişaf gündəliyində dayanıqlı inkişaf məsələləri, DİM-lərə nail olunması üzrə həyata keçirilən siyasət tədbirləri və yaradılan əlverişli mühit, Dayanıqlı İnkişaf Məqsədləri, hədəfləri və göstəricilərinin milliləşdirilməsi və milli inkişaf gündəliyinə daxil edilməsi məsələləri, Dayanıqlı inkişaf üçün qlobal tərəfdaşlıqda iştirak, eyni zamanda, tematik mövzuya uyğun məqsədlər üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər və gələcək addımlar göstərilmişdir.

**- Dayanıqlı İnkişaf Gündəliyinin icrası ilə bağlı növbəti addımlar nələrdən ibarətdir?**

- Azərbaycanda "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi"nin milli səviyyədə yerinə yetirilməsi istiqamətində qarşıdakı illərdə bir sıra tədbirlər həyata keçiriləcəkdir. Bu tədbirlərə qlobal DİM-lərin və onlara uyğun olaraq müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsi, tərəqqini izləmək üçün mərkəzi və yerli səviyyələrdə DİM-lərin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması işlərinin tamamlanması, DİM-lərə nail olmaq üçün beynəlxalq tərəfdaşlıqda iştirakın gücləndirilməsini misal göstərmək olar. Eyni zamanda, Milli Davamlı İnkişaf Gündəliyinin icrası üçün Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının dəstəyi ilə 2018-ci ildə DİM-lərə nail olmaq məqsədilə mühüm sürətləndirici amilləri müəyyənləşdirmək və həyata keçirmək üçün vasitələri müzakirə etmək məqsədilə Milli DİM Konfransının keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, DİM Gündəliyinin uğurlu icrası beynəlxalq tərəfdaşlar, xüsusi ilə Cənub-Cənub əməkdaşlığı vasitəsi ilə ən qabaqcıl təcrübələrin öyrənilməsi və paylaşmasını tələb edir. Bunu nəzərə alaraq, Azərbaycan milli DİM-lərin formalaşdırılması və icrası istiqamətində əldə etdiyi təcrübə və biliklərini paylaşacaqdır.

**Nurlan QƏLƏNDƏRLİ**

# YAP Səbail rayon təşkilatının İdarə Heyətinin növbəti iclası keçirilib



İyulun 4-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı, professor Şəmsəddin Hacıyev iclası açaraq, son bir ay ərzində respublikamızın, Yeni Azərbaycan Partiyasının, o cümlədən rayon partiya təşkilatının ictimai-siyasi həyatında baş verən hadisələrdən ətraflı danışaraq diqqətə çatdırıb ki, ötən ay Azərbaycanın ən yeni tarixində çox əlamətdar gün olan 15 İyun - Milli Qurtuluş Günü yüksək bayram əhval-ruhiyyəsi ilə qeyd edilib. Onun sözlərinə görə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan istər siyasi, sosial-iqtisadi sahədə, istərsə də ordu quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması sahələrində qısa müddət ərzində böyük inkişaf yolu qət edib: **"Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bu gün də sürətlə inkişaf edir və gələcəyə nikbin baxır. Bu gün şahidi olduğumuz bütün nailiyyətlər ölkədə aparılan çox düşünülmüş siyasətlə bağlıdır. Cənab Prezidentin Yeni Azərbaycan Partiyasının Sədri olması isə bizim üçün o deməkdir ki, ölkə rəhbərinin apardığı işlər elə partiyamızın fəaliyyətində də təcəssüm edir".**

Təşkilat sədri qeyd edib ki, ölkəmizin və Səbail rayonunun ictimai-siyasi həyatında yaxından iştirak edən və bu gün sıralarında 25 mindən çox partiya üzvünün cəmləşdiyi YAP Səbail rayon təşkilatının bu ilin birinci yarısındakı fəaliyyətinə nəzər salsaq, əminliklə deyə bilərik ki, rayon təşkilatı daim Prezidentimizin yanındadır və istər partiya üzvlərimiz, istərsə də gənclərimiz ölkəmizdə gedən bütün proseslərdə xüsusi fəallıqları ilə seçilirlər. Ötən iclasdan keçən müddət ərzində YAP Səbail rayon təşkilatının gördüyü işlər haqqında ətraflı məlumat verən Ş.Hacıyev bildirib ki, iyun ayı ərzində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı çoxsaylı tədbirlər keçirilib, rayon təşkilatı nəzdində yeni ərazi ilk partiya təşkilatları təsis olunub, Ramazan bayramı münasibətilə rayonun aztəminatlı sakinləri üçün bir neçə xeyriyyə aksiyası keçirilib. Eyni zamanda, məktəblilərin respublikamızın ali qanunvericilik orqanının fəaliyyəti ilə tanış olması üçün Milli Məclisə bir neçə ekskursiya təşkil olunub. Ş.Hacıyev ilin əvvəlindən etibarən 900-ə yaxın yeni üzvün partiya sıralarına daxil olduğunu bildirib.

Sonra gündəlikdə duran məsələlər müzakirə edilib. "Bibiheybət" (50 saylı orta məktəb) ərazi ilk partiya təşkilatının sədri Sədaqət Həsənova, "Müharibə veteranları" (Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Səbail rayon şöbəsi) ərazi ilk partiya təşkilatının sədri İlham Əliyev və "Əmək normaçıları" (SOCAR-ın Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsinin baş ofisi) ərazi ilk partiya təşkilatının sədri Telman Məhəmmədov ərazi ilk partiya təşkilatlarında görülmüş işlər haqqında məlumat veriblər. Məlumatlar müzakirələrdən sonra səsə qoyularaq yekdilliklə qəbul olunub.

Daha sonra yeni təsis olunmuş ərazi ilk partiya təşkilatları - "Gənclər Fondu", "Milli Kitabxana" və "Şıx Sanatoriyası" ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılıb, bu yeni ərazi illik partiya təşkilatlarının rayon təşkilatının qeydiyyatına alınması haqqında qərar yekdilliklə qəbul edilib.

Sonra "Xəzər dənizçiləri" (Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC) ərazi ilk partiya təşkilatının sədri İzafət Məmmədov 25 iyun dənizçilərin peşə bayramı - "Dənizçi günü" münasibətilə rayon təşkilatının fəxri fərmanı ilə təltif olunub.

Sonda cari məsələlərə baxılıb və müvafiq qərarlar qəbul edilib.